## Görkəmli şəxsiyyətlərin Arif Paşayev haqqında dedikləri



Atam akademik Arif Paşayev mənim üçün insanlıq, xeyirxahlıq və müdriklik idealıdır. Onun elm və təhsil sahəsindəki nailiyyətləri haqqında çox yazılıb.

Atamın insani keyfiyyətləri – onun tükənməz nikbinliyi, başqalarının dərdinə şərik olmaq, onları dəstəkləmək, hamı ilə dil tapmaq xüsusiyyəti, öz müsbət enerjisini ətrafındakı bütün insanlarla bölüşmək istedadı, müdrikliyi və sonsuz xeyirxahlığı mənim həyat amalımdır. O, uzun illərdir ki, Milli Aviasiya Akademiyasına rəhbərlik edir. Tələbələrlə rektor arasında qarşılıqlı hörmət, isti yoldaşlıq münasibətləri atamın yüksək şəxsi və peşəkar keyfiyyətlərinə daha bir sübutdur.

**Mehriban Əliyeva**
**Azərbaycan Respublikasının**
**Birinci vitse-prezidenti**

Mənim uşaqlarım həyatda elə oturub-durublar ki, başımızı həmişə uca eləyiblər. Məktəbdə əlaçı olublar, müəllimləri məni həmişə təbrik edib, ev tərbiyələrindən razı qalıblar. Arif onilliyi yenicə qurtarmışdı. Atası istəyirdi ki, gedib Moskvada oxusun, gözü açılsın, 17 yaşında uşağın uzağa getməsindən qorxurdum. Sonra onu yola saldıq, dalınca da həmişə sovqat göndərirdim. Nəhayət, oxudu gəldi. Gözü-könlü seçdiyi qızla evləndi, ondan da iki qızı oldu. İndi o qızları da gözəl ailə qurublar, gözəl də uşaqları var. Allah canlarını sağ eləsin, xoşbəxtdirlər. Ancaq özü tək qaldı (kövrəlir). Aida xanım dünyasını tez dəyişdi.

**Püstə xanım Paşayeva**
**Arif Paşayevin anası**



Akademik Arif Paşayev kimi mənsub olduğu xalqın böyük ideallarından doğulan şəxsiyyətlər fizikanın hüdudlarını aşaraq metafizikanın üfüqlərini fəth etməyin elə həyati nümunələrini verirlər ki, cəmiyyət ondan mənəvi güc, enerji alır. Və dünya bütün parametrləri ilə daha nurlu, daha işıqlı olur.

**Nizami Cəfərov**
**akademik,**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı**



"Ot kökü üstə bitər", - deyiblər. Akademik Arif Paşayev Mir Cəlal müəllimin övladı olaraq bu ailənin mənəvi və intellektual ənənələrini ləyaqətlə davam etdirmişdir. Mir Cəlal müəllimin qürurla və uzaqgörənliklə söylədiyi "Mənim ən böyük əsərim ailəmdir" - fikri bu ailənin timsalında öz parlaq təsdiqini tapmışdır. Məhz belə bir şəxsiyyətin tərbiyəsinin nəticəsidir ki, Arif Paşayev insanlara münasibətdə yüksək mədəniyyət, təmənnasızlıq və xeyirxahlıq ənənəsini yaşatmış, onun fəaliyyətinin əsas prioritetlərini elm, təhsil və yüksək mənəvi dəyərlərə sadiqlik təşkil etmişdir.

**Akif Əlizadə**
**akademik**



Dünyanın əksər ölkəsində aviasiya sahəsində kadrlara kəskin ehtiyac duyulur və bu sahədə öz tələbatını ödəməyən ölkələr avi- asiya kadrları hazırlamaq və ya aviasiya kadrlarına olan tələbatını ödəmək üçün digər ölkələrə müraciət etməli olurlar. Bəli, respublikamız üçün müasir elmi-texniki tərəqqinin bugünki tələblərinə cavab verən peşəkar aviasiya kadrlarının, o cümlədən yüksək standartlara uyğun pilotların hazırlanması akademik A.M.Paşayevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətləri sırasında xüsusi olaraq qeyd olunmağa layiqdir.

**Arif Mehdiyev**
**akademik**



Akademik Arif Paşayev yüksək elmi-praktiki potensiala malik olmaqla yanaşı, yüksək vətəndaşlıq, vətənpərvərlik hissləri ilə yaşayıb-yaradan, respublika əhəmiyyətli işlərdə, xüsusən ölkəmizdə aviasiya təhsilinin müasir səviyyədə inkişafına yorulmadan gərgin əmək sərf edən, gənc nəslin yüksək vətənpərvərlik ruhunda tərbiyə olunmalarını xüsusi diqqətdə saxlayan qayğıkeş rəhbər, səmimi insan və ətrafında olan hər bir işgüzar, yaradıcı əməkdaşın yaxın məsləhətçisi və köməkçisidir. İnkişaf, tərəqqi, yüksəliş yolumuzun ön cərgəsində irəliləyən elm

adamlarımızdan biri olan akademik Arif Paşayev respublikamızın həyatında taleyüklü məsələlərin həllində səylərini əsirgəməyərək öz xalqına əvəzsiz xidmətlər göstərir.

**Mahmud Kərimov**
**akademik**



Siz indi dəqiq elmlərin milli problemlərilə yanaşı, dünya fizika-riyaziyyat elmlərinin ən mürəkkəb məsələlərilə də məşğul olan alim kimi böyük zəka sahibisiniz. Bu, artıq bəşəri mənada bizim milli sərvətimiz hesab edilməlidir. Bu da İŞIQDI, Arif müəllim. Siz işıqdan törəyənlərsiniz.

**Nəriman Həsənzadə**
**Xalq şairi**



Arif Paşayev bir alim kimi elmin, oğul kimi valideynlərinin, qardaş kimi qardaş və bacısının, ata kimi övladlarının, dost kimi dostlarının uğurudur...

-Hə, hardasan?

-Burdayam, Arif. Sənin yanında. Və bundan qürur duyuram.

**Vaqif Səmədoğlu**
**Xalq şairi**



O, daim həqiqət axtarışında olan narahat insan idrakının nüvəsi kimi ideya və fikirlərin generatorudur. Məhz onun ötürdüyü impulslar insanı ona məlum olmayan, və ya az məlum olan aləmə ehtirasla baş vurmağa təhrik edir. O, aləmin dərinliklərinə irəlilədikcə, insan durmadan onu yaradıcılığa təhrik edən fəlsəfi fikrin istiqamətlərini müəyyənləşdirməyə çalışır, tədqiqatlar nəticəsində əldə etdiyi məlumatların bazasında əvvəlcə düşüncələrini ehtiva edən “ həqiqət necə olmalıdır” nəzəriyyəsini yaradır, sonra isə saysız-hesabsız eksperimentlər vasitəsilə riyazi, fiziki və digər hesablamalar apararaq düsturlarla zənginləşdirir, nəhayət, bir qədər əvvəl ona dərkedilməz, mümkünsüz görünən həqiqəti tapır.

**Əhəd Canəhmədov**
**professor**

Arif müəllim yüksək elmi-praktik potensiala malik olmaqla yanaşı, həm də yüksək vətəndaşlıq qayğısı ilə yaşayıb-yaradır və məhz belə bir elmi entuziazm onun adını "böyük azərbaycanlı"lar sırasına həkk eləyir. Mənim fikrimcə, Arif müəllim üçün ən böyük təltif də, ən böyük titul da məhz budur... Bu gün cəsarətlə demək olar ki, dünyada baş verən qloballaşma dövründə həm Azərbaycanın hüquq məkanında, həm də beynəlxalq arenada tədricən formalaşan nəqliyyat hüququ elminin, nəqliyyatda təhlükəsizlik məsələlərinin həlli istiqamətlərində dünya şöhrətli alim Arif Paşayevin önəmli elmi töhfələri əvəzolunmazdır.

**Əziz Əbdüləziz**
**fəlsəfə elmləri doktoru**



Zamanın çox suları axıb keçib, dünya başqalaşıb, siyasətlər, insanlar dəyişib, 60 il öncə bir şimal şəhərindən bir cənub şəhərinə məktublar yollayan, bütün gələcəyi qarşıda olan tələbə Arif Paşayev də, təbii ki, içərisində yaşadığı zamanın və mühitin övladı kimi xeyli dəyişib – indi akademikdir, şöhrətli, xoşbəxt, həyatda arzuladıqlarının az qala hamısına çatmış, cəmiyyətdə böyük nüfuz və hörmət yiyəsi, sanballı şəxsiyyətdir. Amma bu yaşında da, bütün nail olduqlarına yetişəndən, həyatın hər cür xoş və sərt sifətlərini görəndən, ömrün çox zövq və ləzzətlərini dadandan sonra da onu sevindirən, heyrətləndirən, cazibəsinə sala bilən əsas nemət, yenə onillər əvvəl olduğu kimi, kitabdır, ağıllı söz, qələmdən təzəcə çıxmış yeni və dəyərli fikir daşıyan yazıdır.

**Rafael Hüseynov**
**AMEA-nın həqiqi üzvü,**
**filologiya elmləri doktoru,**
**professor**

Sizin fikriniz, xəyalınız təyyarənin uçan, pərvazlanan qanadı ilə bir yerdə həmişə göylərdə, üfüqlərdədir. Qoy bu ucalıq heç vaxt zirvələrdən enməsin.

**Zəlimxan Yaqub**
**Xalq şairi**





Arif Mir Cəlal oğlu son dərəcə mərhəmətli, humanist, lakin bununla belə çox prinsipialdır. İnsana sevgisi, humanistliyi təkcə xarakterinin fərdi təzahürü olmayıb, həm də onun nəsil və nəcabət tərbiyəsi ilə şərtləndirilmişdir.

**Fəridə Məmmədova**
**tarix elmləri doktoru**



Miqyasına görə nadir insan şəxsiyyətini onda etiraf edən həyat hadisələrinin sonsuz sırasından bir il daha keçdi. Novator ideyalar istehsal edən və öz işinin aşiqi olan elmi bəsirətə malik insan. Bu onun qəti şəkildə müəyyənləşdirdiyi və heç zaman xəyanət etmədiyi həyat seçimidir. İstedadlı rəhbər fədakar xidməti ilə seçilir, özünə qarşı tələbkarlıq isə ona ətrafdakıların hörmətini qazandırır. Məhsuldar elmi-pedaqoji, rəhbər və təşkilatçı kimi ictimai fəaliyyəti-Arif Paşayevin peşəkar uğurunun komponentləridir. O, ölkənin intellektual elitasını yetişdirmək üçün uzun illərini elmə həsr edən inandırıcı liderdir. Onun fundamental fəaliyyəti ilə vəhdət təşkil edən ömür yolu və təcrübəsi çoxsaylı yetirmələrinin, kolleqalarının və dostlarının səmimi və dərin hörmətini qazanmışdır. Arif Mir Cəlal oğlu öz pedaqoji istedadını unikal ali təhsil müəssisəsi olan-Azərbaycan Milli Aviasiya Akademiyasına rəhbərlik edərək yüksək ixtisaslı aviasiya kadrlarının hazırlığına sərf etmişdir. Məhz onun təhsil naminə həqiqətən fədakar fəaliyyəti, titanik səyləri nəticəsində MAA-nın divarları arasından böyük bir gənc mütəxəssis nəsli çıxmışdır. Arif Mir Cəlal oğlu ali təhsil müəssisəsinin kollektivinin pedaqoji, elmi və təhsil potensialını birləşdirmək, əlaqələndirmək və lazımi səmtə istiqamətləndirmək kimi müstəsna bacarığa malikdir.

**Cahangir Əsgərov**
**Əməkdar pilot**



Arif müəllim halal bir ocağın yetirməsidir. Onun atası Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatında böyük yeri olan yazıçıdır. Arif müəllim belə bir ocaqda dünyaya göz açıb. Biz çox vaxt öz böyük alimlərimizi yaxşı tanımırıq. Ancaq elmimizin inkişafında böyük əmək sərf etmiş alimlərimiz çoxdur. Bu alimlər var, onlar mənsub olduğu xalqa, dövlətimizə ləyaqətlə xidmət edirlər. Onlardan biri də Arif müəllimdir. Bəlkə də bizə nağıl kimi gələrdi ki, bizdə aviasiya sahəsi bu cür inkişaf edə bilər. Ancaq Arif müəllimin ardıcıl səyi və bacarığı sayəsində bu, artıq reallığa çevrilib.

**Ziyafət Əsgərov**
**professor,**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı**



Arif Paşayev elə bir şəxsiyyətdir ki, onun haqqında söz deməyin özü xoşdur. O, millətini tanıdan şəxsiyyətlərdəndir. Belə şəxsiyyətlər millətin sərvətidir. Hansı xalq ki, millətinin sərvəti olan insanları, şəxsiyyətləri uca tutur o millətin özü də yüksəlir. Boyük şəxsiyyətin ailəsində doğulub yaşamağın özü də xoşbəxtlikdir. Ancaq bunun çətinliyi, məsuliyyəti də var. Görkəmli yazıçı Mir Cəlal ədəbiyyat tariximizdə böyük yeri olan, kölgə yaratmış şəxsiyyətlərdəndir. O cür böyük bir kölgədən çıxıb öz kölgəni yaratmaq çox çətindir. Arif müəllim öz fəaliyyətilə bu böyük işi bacarıb. Onun mənsub olduğu ailə öz unikallığı ilə milli kimliyimizi layiqincə ehtiva edən bir ailədi. Mir Cəlal müəllimin ədəbi qəhrəmanlarından biri olan Sona xalanın artıq aforizmə çevrilmiş, dillər əzbəri olan "itə ataram, yada satmaram" etirazı əslində böyük mətləbləri ifadə edirdi. Bu mətləbin kökündə xalqımızın qüruru, yenilməzliyi, yüksək vətəndaşlıq duyğusu əks olunub. Paşayevlər ailəsi bütövlükdə belə bir duyğuyla, amalla kamala çatıb. Arif müəllim məhz bu cür yüksək dəyərləri aşılayan bir kişinin övladıdır.

**Qənirə Paşayeva**
**siyasi elmlər doktoru**



Akademik Arif Paşayev bu ilin 15 fevralında ömrün 85-ci zirvəsini fəth edir. Bilirəm ki, insan müdrikliyinin yaşı yoxdur. İnsan bu məqama yaşı ard-arda sıralayan rəqəmlər hesabına deyil, dünyaya ucalıqlardan baxışı, bəsirət gözünün açıqlığı sayəsində çatır. Bu baxımdan Arif müəllim lap çoxdan müdriklik məqamı- nın sahibidir. Bu məqamda şərəflə yaşanmış 85 illik ömrün həyat təcrübəsi, illərin xatirələri, zəngin bilikləri, başqalarına edilmiş saysız-hesabsız yaxşılıqların ruhani məmnuniyyət hissi üst-üstə toplandıqda isə bu məqam artıq kamillik adlanır.

**Misir Mərdanov**
**AMEA-nın müxbir üzvü,**
**professor**



İnsan dünyaya yaşayıb yaratmaq, özündən sonra iz qoymaq üçün gəlir, yalnız əməksevər, zəhmətkeş insanlar əvəzolunmaz, möhtəşəm işlərə imza ataraq, bir şəxsiyyət kimi mövcud olduqları cəmiyyəti inkişafa doğru apara bilir. Mənən zəngin, elmi potensialı yüksək, dərin insanlar müraciət etdikləri istənilən sferada uğur qazanaraq nəsillərə örnək olur, atdıqları hər addımla, verdikləri hər qərarla böyük bir işin ərsəyə gəlməsinə səbəb olurlar. Əsl ziyalı üçün elmin istənilən istiqaməti böyük maraq kəsb edir, desək, yanılmarıq. Görkəmli elm xadimi və ictimai sima olan akademik Arif Mir Cəlal oğlu Paşayev də bu cür fenomen- lərdəndir.

**Firəngiz Hüseynova**
**Əməkdar mədəniyyət işçisi**